*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 avqust 2017-ci il № 62 (2179) Qiyməti 25 qəpik

# Cəbhəboyu zonada yerləşən bölmələrdəki mövcud şərait yoxlanılıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Baş Nazirin birinci müavini Yaqub Eyyubov və Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada mövcud olan vəziyyətlə yerində tanış olmaq məqsədilə ön xətdə yerləşən bölmələrdə olub.

Düşmənlə qarşıdurma xəttindəki bölmələrdə hərbi quluqçularla görüşən rəhbər heyətə döyüş şəraiti barədə məruzə edilib.

Baş Nazirin birinci müavini və Müdafiə naziri şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, onların qidalanması, əsgər yataqxanaları, sosial-məişət şəraiti və digər hərbi obyektlərlə tanış olublar.

(Ardı 2-ci səhifədə)

## “Azərbaycanın dünyada sülhün bərqərar olmasına verdiyi töhfələr təqdirəlayiqdir”

Avqustun 15-də Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov Birləşmiş Millətlər Təşkilatının sabiq baş katibi Pan Gi Mun və Koreya Respublikası Milli Assambleyasının bir qrup deputatından ibarət nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, vitse-spiker Valeh Ələsgərov səfərin uğurlu keçəcəyinə və qarşıya qoyulan məqsədə nail olacaqlarına əminliyini bildirdi.

BMT-nin sabiq baş katibi Pan Gi Mun Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransında iştirak edən Koreya nümayəndə heyətinə başçılıq etdiyini söylədi. Diqqətə çatdırıldı ki, 2020-ci ildə Koreyada Skaut Hərəkatının başlamasının 100 illiyi qeyd olunacaq. Qonaq 2022-ci ildə Skaut Konfransının Koreyada keçirilməsi üçün Azərbaycanın dəstəyinə inamını ifadə etdi.

Pan Gi Mun bildirdi ki, bu il Azərbaycanla Koreya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi qeyd olunur, bununla bağlı müxtəlif tədbirlər keçirilir. O, BMT-nin baş katibi olduğu dövrdə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü xatırladı. Ölkəmizin dünyada sülhün bərqərar olmasına verdiyi töhfələri təqdir etdi və təşəkkürünü bildirdi.

Pan Gi Mun ilk dəfə Azərbaycanda 2006-cı ildə olduğunu, ötən müddət ərzində ölkəmizin uğurla inkişaf etdiyini vurğuladı, əldə edilən nailiyyətləri yüksək dəyərləndirdi. O, Prezident İlham Əliyevin, Milli Məclisin sədri Oqtay Əsədovun Koreyaya səfərləri barədə fikirlərini bildirdi.

Milli Məclis sədrinin müavini Valeh Ələsgərov Bakıda keçirilən 41-ci Dünya Skaut Konfransının böyük hadisə olduğunu dedi. Diqqətə çatdırıldı ki, cari ilin dekabr ayında Azərbaycanda Skaut Hərəkatının 20 illiyi qeyd olunacaq.



“Sizdən öyrənirik qəhrəmanlığı”

2-ci səhifədə



Güclü ordumuz - qürurmuz

3-cü səhifədə



Tariximiz, milli-mənəvi dəyərlərimiz də layiqincə təmsil olundu

4-cü səhifədə



Hərbi güləşçilərimiz gələn ay Litva respublikasında güclərini sınayacaqlar

4-cü səhifədə

# Cəbhəboyu zonada yerləşən bölmələrdəki mövcud şərait yoxlanılıb





(Əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısının Silahlı Qüvvələr qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirən rəhbər heyət burada hərbi qulluqçular üçün yaradılan şəraiti yüksək qiymətləndirib və şəxsi heyətlə birlikdə nahar edib.

* * *

Cəbhənin ön xəttində səfərdə olan Baş Nazirin birinci müavini və Müdafiə naziri həmçinin burada yeni inşa edilən hərbi şəhərcikdə yerinə yetirilən işlərin gedişini də yoxlayıblar.

Məruzə edilib ki, hərbi şəhərcikdə su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə təmin olunmuş qərargah, əsgər yataqxanaları, yeməkxana, digər inzibati bina və qurğularla yanaşı, hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərmələrini təmin etmək məqsədilə müvafiq məişət və ictimai iaşə kompleksləri, tibb məntəqəsi və digər infrastruktur obyektləri də nəzərdə tutulub.

Görülən işlərə baxış keçirildikdən sonra, inşaat işlərinin keyfiyyətli yerinə yetirilməsi ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 avqust 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 117 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***18 avqust 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 112 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Vazaşen kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Nümunəvi xidmət

# "Sizdən öyrənirik qəhrəmanlığı"



*"N" hərbi hissəsindəydik. Bölmədə nümunəvi xidməti və nizam-intizamı ilə seçilən atıcı əsgər Şamxal Eyubov haqqında ağızdolusu danışdılar. O, hərbi xidmətə Salyan rayonundan çağırılıb. Kapitan Emin Şirinov onun haqqında belə dedi.*

"Əsgər Şamxal Eyubov məsuliyyətli, nizam-intizamlı, vətənpərvər əsgərdir. O, ilk günlərdən üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlir, döyüş növbələrində ayıq-sayıq dayanır. Bir ildən çoxdur ki, bu bölmədə xidmət edir. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. Döyüş, ictimai-siyasi hazırlıq dərslərində fəal iştirak edir. Silahının taktiki-texniki xüsusiyyətlərini mükəmməl öyrənir. Belə vətənpərvər, bacarıqlı, cəsur, intizamlı və mənəvi keyfiyyətlərə malik övlad böyütdükləri üçün onun valideynlərinə dərin minnətdarlığımı bildirirəm".

Hərbi hissələrə ezamiyyətim zamanı belə vətənpərvər əsgərləri yaxından tanımağın, onlarla görüşməyin yaşatdığı sevinci, qürur hissini düşünürəm. Düşünürəm ki, müxtəlif şəraitlərdən asılı olmadan torpaqlarımızı müdafiə edən əsgərləri tanımaq, onların cəsurluğunu, mərdliyini, vətənpərvərliyini təbliğ etmək mənim borcumdur.

..."Növbədə olduğumuz zaman heç bir hadisə baş verməyib" məruzəsi məni düşüncələrimdən ayırdı. Əsgər Şamxal Eyubovun yanındaydıq. Onun əlini sıxıb, vətənpərvərliyi və nümunəvi xidməti ilə komandirlərinin və əsgər yoldaşlarının rəğbətini qazandığı üçün "halal olsun, əsgər" deyirəm. Əsgər qürurlanır, sevinir... "Nümunəvi xidmət etmək hər birimizin borcudur. Biz Vətən keçikçiləriyik, çətinlik bilmədən üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirmək üçün əlimizdən gələni etməliyik", - deyir Şamxal.

Əsgər Eyubovun qürurdan üzündə işıqlanan sevinc hissi ilə yanaşı, gözlərində böyük bir qəzəb hissi də alovlanır. Bu qəzəb işğalçı düşmənə qarşıdır. Körpə uşağa belə mərmi atacaq qədər qəddarlığa, canilıyə, vəhşiliyə malik olan düşməni məhv etmək üçün məqam gözlədiyini vurğulayır.

- 13 aylıq hərbi xidmətim zamanı komandirlərim tərəfindən Vətəni qorumağa qadir olan bacarıqlı əsgər kimi yetişmişəm. Onların bizə olan diqqəti və qayğısı xidmətimi uğurla davam etdirməyə zəmin yaradır. Hər zaman döyüş postunda xidmət etməyi arzu etmişəm. Düşmənlə üz-üzə dayanıb, Vətəni qorumaq şərəfinə nail olmaq istəmişəm. Çünki mən əsgəri xidmətə gələrkən qəhrəmanların döyüş yolunu özümə örnək bilmişəm. Mübarizlərdən, Samidlərdən, Çingizlərdən olmaq arzusu ilə xidmət edirəm. Bir vaxtlar onların qoruduğu bu torpaqları göz bəbəyi kimi qorumağı özümə borc bilirəm. Torpaqlarımıza göz dikən düşməni məhv edib şəhidlərimizin, erməni vəhşiliyinin qurbanı olan Zəhraların qisasını almaq ilə gəlmişəm xidmətə. Döyüş əmri alan kimi torpaqlarımızın hər qarışı üçün canım bahasına döyüşəcəm.

Şamxalın sözləri məni çox qürurlandırır. Əsgərləri tanıdıqca əmin oluram ki, hər bir gəncimiz Şamxal kimi belə müqəddəs amalla xidmət edir və bacarıqlı, vətənpərvər əsgər kimi formalaşır. Bu gün ordu sıralarında vəzifələrinin öhdəsindən bacarıqla gələn belə vətənpərvər oğullar Azərbaycan əsgəri adını daşımağa qürur duyurlar. Buna görə də sonsuz Vətən sevgisi ilə xidmət edirlər. Hər bir əsgərin amalı torpaqlarımızı işğaldan azad etməkdir. Bunun üçün onlar xidmətə məsuliyyətlə yanaşır, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirlər. Xidmətləri ilə sübut edirlər ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz, cəsurdur. Vətən uğrunda hər an döyüşə atılmağa hazırdır.

Əsgərlərimiz Mübarizlərə, Samidlərə, Çingizlərə xitabən deyirlər ki, sizdən öyrənirik qəhrəmanlığı...

**Leytenant Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto Coşqun CƏFƏROVUNDUR**

*Ön xətdən reportaj*

# Güclü ordumuz - qürurumuz



*...Yolumuz cəbhə bölgəsinədir. İsti yay günləindən birində torpaqlarımızın keşiyində dayanan igid əsgərlərlə görüşə gedirik.*

Bizi əsgərlərin yanına aparmaq hərbi hissənin şəxsi heyətlə iş üzrə zabiti Müseyib Zeynalova tapşırılır. Təcrübəli zabit yol boyu maraqlı söhbətlər edir. Belə qızmar istilərdə əsgərlərin vəziyyəti haqqında maraqlanıram. "Bu yerlərdə yayda kəskin istilər və quraqlıq olur. Buna görə də əsgərlərin məişət şəraiti üçün zəruri tədbirlər görülür. Kəskin istilərə baxmayaraq şəxsi heyət arasında günvurma faktına rast gəlinməyib. Bütün komandir heyəti çalışır ki, əsgərlərimiz daim yüksək əhval-ruhiyyədə və xoş ovqatda xidmət etsinlər" .

- Ön xəttdə düşmən atəşkəsi pozaraq təxribatlara əl atır, - deyə zabit söhbətinə davam edir. - Əsgərlərimiz ayıq-sayıq xidmət aparır və hər cür təxribatların qarşısını qətiyyətlə alırlar. Azərbaycan əsgəri istənilən vaxt düşmən təxribatının qarşısını almaq gücündədir və düşmənə heç zaman məqsədinə çatmağa imkan verməyəcəkdir.

...Emin Şirinov bölmə komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edir. Zabit döyüş postlarında əsgərlərin məişət şəraitinin, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu bildirir. "Nə qədər müasir silahlanmaya malik olsa belə, ordunun əsas gücü onun şəxsi heyətinin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı ilə ölçülür" - deyən zabit hər bir əsgərin döyüş tapşırığını yerinə yetirmək əzmində olduğunu qeyd edir.

- Şəxsi heyətin mənəvi-psixoloji hazırlığını və vətənpərvərliyini gücləndirmək istiqamətində qarşımıza vacib tapşırıqlar qoyulub, - deyir zabit. - Bu vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylərimizi əsirgəmirik. Bütün üsul və vasitələrdən istifadə edərək çalışırıq ki, hərbi xidmətə gələn gənclər yüksək döyüş ruhuna malik, torpaqlarımızın keşiyində möhkəm dayanmağa qadir olan əsgərlər kimi formalaşsınlar.

Səngərə daxil oluruq. Bu səngərlərdə ayıq-sayıq döyüş növbəsi aparan əsgərləri tanıyacağım üçün sevinirəm.



Üz-gözündən mərğrurluq duyulan post başçısı çavuş İntiqam Sarıyev özünü hərbi qaydada təqdim edir, qarşıdakı düşmənin mövqeləri barədə məlumat verir. İntiqam bir istiqaməti göstərərək "ən çox bu tərəflərdən mövqelərimizi atəşə tuturlar. Cavab atəşi açılan kimi susurlar. Biz bu istiqamətləri daha ciddi nəzarətdə saxlayır, fasiləsiz müşahidə aparırıq. Gecə və dumanlı havalarda isə müşahidəni artırırıq. Çünki təxribatçılar əlverişsiz şəraitdən istifadə edə bilərlər", - deyir.

Çavuş Sarıyevi yaxından tanıyıram. Atasının Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olduğunu öyrənirəm. Bu igidin həm adı İntiqamdır, həm də arzuları. Deyir ki, tezliklə döyüş əmri ilə atasının intiqamını düşməndən alacaq. Qəflətən yumruğunu sıxır, sinəsi qabarır, şux duruşunu qürurlu baxışları tamamlayır. Baxışlarından düşmənə sonsuz qəzəbini hiss edirəm. İntiqam "Atam şəhid olub!" - deyəndə də nə qədər qürurlu olduğunu duyuram.

- Atamla bağlı xatirələrlə böyümüşəm. Atam və onun kimi neçə-neçə igidin uğrunda canından keçdiyi Vətən torpaqlarını işğaldan azad etmək bu gün mənim də əsas amalımdır. Günlər, aylar, sürətlə ötüb keçən zaman məni məqsədimə yaxınlaşdırır. 2 ilə yaxındır ön xətdə xidmət edirəm. Hərbçi peşəsini özümə həyat yolu seçmişəm. Bu şərəfli yolda xidmətimi uğurla davam etdirir, düşməndən qisas alacağım günü gözləyirəm. Biz atalarımızın qisasını alıb, doğma yurd-yuvalarımızda böyük qələbəni qeyd edəcəyik.

...Ərazi bütövlüyümüz uğrunda şəhid olan qəhrəmanlarımız atasız qalacaq övladlarını, gözü yaşlı ana-bacılarını düşünmədilər, son damla qanlarına kimi vuruşdular. "Təki Vətən sağ olsun" - dedilər. İntiqamın da atası o qəhrəmanlardandır. O da bütün atalar kimi övladını düşünmədi. Çünki Vətənini sevən, ona ürəkdən bağlı olan hər kəs yaxşı bilir ki, atasız da böyümək olar, lakin Vətənsiz yaşamaq olmaz...



... Mövqedə dayanan əsgər Ağalar Abışov, hərbi xidmətə Kürdəmir rayonundan çağırılmışam - deyir. - 10 aydır xidmət edirəm. Atıcıyam. Döyüş növbəsində ayıq-sayıq dayanır, təhlükəli istiqamətlərə daim müşahidə aparıram. Hərbi andiçmə günündə atam çox qürurlanmışdı, gözləri də dolmuşdu. O, əlini çiynimə qoyub "çox sevincliyəm ki, övladlarımız doğma Vətənimizdə, Azərbaycan Ordusunda xidmət edirlər. Vətəni göz bəbəyi kimi qoruyun" demişdi. Bu gün mən əlim tətikdə, gözüm nişangahda postda ayıq-sayıq dayanmışam. Qarşı tərəfdən bircə həmlə gələrsə, düşmənə göz açdırmaram.

Vətənpərvərlik ailədən başlayır. Hər bir ailə övladını Vətənə bağlı, dövlətinə sədaqətli, vətənpərvər gənc kimi yetişdirir. Hələ uşaq yaşlarından övladlarına vətənpərvərlik aşılayan valideyn, öz oğluna ən birinci vəzifəsinin böyüyüb əsgəri xidmətə getmək olduğunu deyir. Azərbaycan Ordusuna sonsuz güvənən ata-analar övladlarını hərbi xidmətə könül rahatlığı ilə yola salırlar. Hər kəs əmindir ki, bütün hərbi hissələrdə, həmçinin ön xətdəki bölmələrdə yüksək sosial şərait yaradılıb.

Əsgər Heydər Abdullayev növbə zamanı heç bir hadisə baş vermədiyini deyir. Hərbi xidmətə Sabirabad rayonundan çağırılıb. Bu əsgərin dedikləri necə müqəddəs arzulardır.

- Könüllərdə daim yaşayan şəxslər Vətəni üçün yaşayıb, Vətən üçün canından keçənlərdir. Necə ki, Mübarizlər, Samidlər, Fəridlər, Raquflar, Vüqarlar, Çingizlər. Onlar Vətən üçün yaşadılar, torpaqlarımızın hər qarışı üçün vuruşdular. Mən də belə qəhrəmanların davamçısı olmağı qarşıma məqsəd qoymuşam. Arzulayıram ki, döyüş meydanında onlar kimi şücaət göstərim. Onlar bizə Aprel zəfərini yaşatdılar, biz də böyük qələbəmizlə onların ruhunu şad edəcəyik.

...Ezamiyyətlərim zamanı döyüş postlarında əlini sıxdığım igidlərin mərdliyi, qorxmazlığı, cəsurluğu barədə düşünürəm. Gözlərdən oxunan Vətən sevgisini, düşmənə nifrət hissini düşünürəm. Düşüncələrim qəlbimə dolan inam hissi ilə rahatlıq tapır: İntiqamların, Heydərlərin arzuları tezliklə çin olacaq...

Mövqedə dayanan əsgər Camal Mirzəyev hərbi xidmətə Biləsuvar rayonundan çağırılıb. Postda əsgərlər arasında dostluq-qardaşlıq münasibətindən ağızdolusu danışır. Belə mühitdə xidmət etdiklərini, hamının Vətəni qorumaq amalı ilə yaşadığını vurğulayır.

- Posta gəldiyim ilk gündən təcrübəli əsgərlər mənə kömək olublar. İlk dəfə döyüş növbəsinə əsgər Səbuhi Əlimirzəyevlə çıxmışdım. O, xidmətini başa vurub. Dostluğumuz yenə də davam edir. Burda sarsılmaz birliyimiz var, torpaqlarımıza göz dikən düşmən qarşısında mərdliklə dayanmışıq. Komandirlərimizdən müxtəlif silahlardan istifadə qaydalarını öyrənmişik. Hər an torpaqlarımızı işğaldan azad edəcək gücə malik əsgərlərik. Düşmən ata-baba torpaqlarımızdan geri çəkilməlidir!

... "Ordun varsa, yurdun var!, Ordun yoxsa, yurdun yox!" - deyimlərini xatırlayıram. Doğrudan da, nizami ordu, mərd və qorxmaz oğullarımız olmasa, Vətəni nə qorumaq, nə də yaşatmaq olar. Bu gün hər bir Azərbaycan vətəndaşının qürur duyduğu şanlı Azərbaycan Ordusu var. Bu ordunun sıralarında cəsur, qorxmaz, ürəkləri Vətən sevgisi ilə alovlanan oğullar xidmət edir. Həmsöhbət olduğum əsgərlər də həmin oğullardandır. Əsgərimizə xidmətlərində uğurlar arzulayıram. "Gələn görüşlərədək. Salamat qalın", deyirəm.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", fotolar Coşqun CƏFƏROVUNDUR**

# Tariximiz, milli-mənəvi dəyərlərimiz də layiqincə təmsil olundu

*Müxtəlif beynəlxalq yarışlarda iştirak edən hərbçilərimiz "Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində keçirilən yarışlarda da uğurlar qazanıblar. Bu fakt təsdiqləyir ki, Silahlı Qüvvələrimizə ölkə rəhbərliyi səviyyəsində yüksək diqqət və qayğı göstərilir. Hərbçilərimiz 28 ölkənin nümayəndələri arasında yüksək göstəricilərə nail olublar.*





- Ölkəmiz bu beynəlxalq yarışlarda da layiqincə təmsil olundu, - deyə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin rəis müavini polkovnik-leytenant Eldar Sadıqov bizimlə söhbətində bildirdi. - Milli mənəvi dəyərlərimizi əks etdirən stendlər hər bir iştirakçı tərəfindən böyük maraqla qarşılanırdı.

Burada ilk olaraq dövlətimizin adı, atributlarımız-bayrağımız, gerbimiz və sərhədlərimiz Bakının və ecazkar Xəzər dənizinin sahilləri fonunda əks olunub. "Beynəlxalq Ordu Oyunları - 2017" yarişlarının və Müdafiə Nazirliyinin məxsusi nişanları da eksponatlar sırasındaydı. Qonaqlar Şirvanşahlar sarayının fonunda tarixi sərkərdələrimizin - Koroğlunun, Cavanşirin, Babəkin, Şah İsmayıl Xətainin, Səməd bəy Mehmandarovun, Həzi Aslanovun, bir sözlə, xalqımızın qürur duyulan keçmişində böyük əməyi olan şəxsiyyətlərin rəsmlərinə də maraqla baxırdılar. Müasir Azərbaycanın dövlətçilik memarı, ümummilli liderimiz Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəsmləri xüsusi ilə diqqəti cəlb edirdi. Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan milli silahlarımız da maraq doğurmaya bilməzdi.

Mərkəzi Zabitlər Evinin rəis müavini qeyd etdi ki, tarixi incilərimiz sırasında İçərişəhərin xüsusi yeri var. "Bu hissədə klassiklərimizdən Nizami Gəncəvinin, Xaqani Şirvaninin, Nəsirəddin Tusinin, İmadəddin Nəsiminin və Məhəmməd Füzulinin portretləri yer almışdı. Qobustan qayaüstü rəsmləri, Atəşgah, Əlincə, Mərdəkan, Şuşa və Əsgəran qalaları çox qədim tariximizin nişanələridir. Əfsanəvi Neft daşları şəhərinin, həmçinin, milli xörəklərimiz olan dolmanın, pitinin, kababların, təndir çörəklərinin də şəkillərini yerləşdirmişdik. Əl işi və fabrikdə toxunan xalçalarda butalar, ornamentli görüntülər diqqət çəkirdi. Lətif Kərimovun "Azərbaycan xalçaları" kitabına istinadən maraqlananlara daha ətraflı məlumatlar verilirdi.

Stenddə milli musiqi alətlərimiz haqqında müfəssəl məlumat verilirdi. Balabanın VI əsrə, saz və kamançanın XVI əsrə, tarın XVII əsrə, qavalın orta əsrlərə aid olduğu, zurnanın üç min il istifadə edildiyi də stenddə öz əksini tapmışdı. Bununla yanaşı, üç dildə dərc olunan "Azərbaycanın musiqi alətləri" kitabı da sərgiyə gələnlərin diqqətini çəkirdi. Azərbaycanın tarixinə, görkəmli şəxsiyyətlərimizə həsr olunmuş kitablar, çövkən oyunu haqqında geniş məlumat, milli geyimdə olan kuklalar, buta, nar, qılınc kimi milli arqumentlər də sərgiləndi. Bütün bunlar haqqında maraqlı məlumatlar bir-birini tamamlayırdı.

Milli mətbəximizin şirniyyatları Gəncə və Şəki paxlavası, şəkərbura qonaqlara ikram edildi. Şirniyyatları dadanlar maraq və heyranlıqlarını dilə gətirdi: Dadlıdır, gözəl hazırlanıb..."

Polkovnik-leytenant Eldar Sadıqov onu da bildirdi ki, beynəlxalq yarışlarda Rusiya Müdafiə naziri Sergey Şoyqu və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimov Beynəlxalq Ordu Oyunları çərçivəsində yaradılan "Dostluq Evi"nə baş çəkdilər. "Burada onlar Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşüb iştirakçı dövlətlərin mədəniyyət nümunələrinin də nümayiş etdirildiyi sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, məişətinə aid eksponatlarla yaxından tanış oldular. Rusiya Müdafiə naziri Sergey Şoyqu qürurverici kəlmələrlə ən yaxşı sərgi və milli xörəklərin burada olduğunu bildirdi. Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov həmkarına xəncər bağışladı.

Beynəlxalq yarışlar boyu müxtəlif dövlətləri təmsil edən iştirakçılar Xatirə dəftərinə təəssüratlarını yazdılar.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Hərbçi güləşçilərimiz gələn ay Litva respublikasında güclərini sınayacaqlar

*Azərbaycan Ordusu sıralarında xidmət edən yüzlərlə idmançı hərbi xidməti ilə yanaşı idman fəaliyyətini də yüksək səviyyədə davam etdirir, müxtəlif mötəbər yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmançılara diqqət və qayğısına cavab olaraq Azərbaycan idmançıları beynəlxalq idman arenalarında yeni-yeni uğurlar əldə edirlər.*

Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda (MOİK) 16 idman növü üzrə fəaliyyət göstərən bölmələrdə bütün yaş qrupları üzrə məşqlər keçirilir. Azərbaycan milli yığma komandasının əksər üzvləri Mərkəzi Ordu İdman Klubunun təmsilçiləridir. Olimpiya, Dünya, Avropa və başqa yarışlarda qazanılan medalların da bir hissəsi ordu idmançılarına məxsusdur. Həmçinin, MOİK-nun yetirmələri "BAKI-2017" İslam Həmrəyliyi Oyunlarında 1-ci yeri tutan Azərbaycan yığmasının qələbəsində də pay sahib oldular. Onlardan 2-si qızıl, 1-i gümüş və 1-i bürünc olmaqla komandamızın hesabına 4 medal qazandılar.

MOİK 1995-ci ildən Beynəlxalq Hərbi İdman Şurasının (SİZM) fəal üzvüdür. SİZM mühüm beynəlxalq hərbi idman təşkilatıdır. Onun məqsədi idman və fiziki məşqlər vasitəsilə iştirakçı ölkələr arasında daimi əlaqələr yaratmaqdır. Bu qurum 1948-ci il fevralın 18-də Fransada yaradılıb. Həmin iclasda Lüksemburq, Hollandiya, Belçika və Danimarka nümayəndələri SİZM-i yaradıblar. Qısa zaman ərzində fəaliyyətini genişləndirən bu təşkilat hazırda 137 ölkəni özündə birləşdirən mötəbər idman təşkilatlarından biridir. Əsas məqsədə nail olmaq üçün SİZM hər il hərbçilər arasında 20-yə yaxın dünya çempionatı və 100-dən çox qitələrarası və regional hərbi idman yarışları təşkil edir. SİZM-ə üzv olduğu gündən bu günə kimi, MOİK-in yetirmələri 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və hər il keçirilən idman növləri üzrə Dünya çempionatlarında uğurla çıxış edərək 33 qızıl, 42 gümüş və 58 bürünc medal qazanıb. Həmçinin, 2015-ci ildə SİZM-in Koreya Respublikasında keçirdiyi 6-cı Ümumdünya Hərbi İdman Oyunlarında iştirak edib-



lər. 120 ölkədən 8100 nəfər idmançının iştirak etdiyi bu yarışlarda Azərbaycan Respublikasının Silahlı Qüvvələri 5 idman növü üzrə 30 idmançı ilə təmsil olunub və 15-ci yerə layiq görülüb.

Hərbçilərin cüdo üzrə dünya çempionatı Qafqazda birinci dəfə, Rusiya Federasiyasından sonra ilk dəfə Azərbaycan Respublikasında keçirilib. Bununla yanaşı, SİZM-in çərçivəsində hərbçilərin 2004-cü ildə cüdo üzrə 30-cu, 2006-cı ildə güləş üzrə 24-cü və 2008-ci ildə boks üzrə 52-ci dünya çempionatları keçirilib. MOİK-in ən böyük uğurlarından biri də 2013-cü ildə hərbçi idmançılar arasında ilk dəfə keçirilən futbol üzrə Dünya Kuboku yarışının Azərbaycanda keçirilməsi olub. Bu, respublikamızda yaradılan idman qurğularının müasir tələblərə cavab verməsini bir daha sübut edib. Şübhəsiz ki, dünya hərbçilərinin yenidən Azərbaycanda toplaşması ölkə futbolunun inikşafına öz müsbət təsirini göstərdi və gənc nəslin vətənpərvərlik ruhunun yüksəldilməsində əhəmiyyətli rol oynadı. Hərbçi idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi nailiyyətlər ordumuzun qüdrətini bir daha sübut edir, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz tərəfindən xüsusi qayğı ilə yanaşıldığını göstərir.

Beynəlxalq Hərbi İdman Şurasının keçirtdiyi yarışlarda dəfələrlə Azərbaycan Respublikasının Silahlı Qüvvələrini layiqincə təmsil edərək Vətənə çoxlu medallar gətirmiş Mərkəzi Ordu İdman Klubunun yetirmələri 18-25 sentyabr 2017-ci il tarixində Litva Respublikasının Klaipeda şəhərində idmanın güləş növü üzrə keçiriləcək 32-ci Dünya çempionatında güclərini sınayacaqlar. Bu yarışda ölkəmizi 16 idmançı, 2 hakim və 2 məşqçi təmsil edəcək. İnanırıq ki, hərbçi pəhləvanlarımızın hər biri uğurlu nəticə əldə edərək ölkəmizə medallarla qayıdacaq.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Qusarda Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun barelyefi qoyulub




Qusar şəhərində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun barelyefi qoyulub.

AZƏRTAC xəbər verir ki, Milli Qəhrəmanın adını daşıyan küçədə qoyulan barelyefin açılış mərasimi avqustun 15-də rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilib.

Mərasim iştirakçıları barelyefin önünə tər güllər düzərək Ç.Qurbanovun, o cümlədən bütün şəhidlərimizin xatirəsini ehtiramla anıblar.

Mərasimdə Milli Məclisin deputatı Azər Badamov, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək müasir Azərbaycan Ordusunun yüksək intizamı və döyüş hazırlığı ilə dünyanın əksər silahlı birləşmələrinə nümunə olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasətinin hazırda Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev uğurla davam etdirir.

Bildirilib ki, Azərbaycan Ordusunun əsgəri Çingiz Salman oğlu Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla birgə görülmüş tədbirlər nəticəsində onun nəşi düşmən tərəfdən alınıb və doğulduğu Qusar rayonunda dəfn edilib.

Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.



Milli Qəhrəmanın atası Salman Qurbanov torpaqlarımızın azadlığı uğrunda canından keçən oğlu ilə fəxr etdiyini, övladının qisasının döyüş yoldaşları tərəfindən alınacağına əmin olduğunu deyib. S.Qurbanov bildirib ki, dövlətimizin başçısı Çingizin qəhrəmanlığını, fədakarlığını, Vətənə bağlılığını layiqincə qiymətləndirərək, ona Azərbaycanın Milli Qəhrəmanı adını verdi. Çingiz və onun kimi Vətən oğullarının xatirəsi qəlbimizdə daim yaşayacaq.

Çıxışlarda aprel döyüşlərindən də danışılıb. Ermənistan ordusunun məğlubedilməzliyi ilə bağlı yaranmış mifin darmadağın olunduğu aprel döyüşlərinin şanlı qələbəmiz olduğu qeyd edilib.

# Hərbi tibb mütəxəssislərinin görüşü keçirilib

*Amerika Birləşmiş Ştatları Silahlı Qüvvələrinin Avropa Komandanlığının hərbi tibb mütəxəssislərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi feldşerləri ilə təcrübə mübadiləsi aparmaq məqsədilə ölkəmizdə səfərdə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində nümayəndə heyəti ilə azərbaycanlı həmkarları arasında hərbi tibb dəstəyinin göstərilməsi üzrə səhra təlimləri, təcili tibbi müdaxilə, döyüş travmasının qiymətləndirilməsi və təxliyəsi, davamlı hərbi tibbi müdaxilə, o cümlədən kütləvi qırğın silahlarının istifadəsi zamanı insanların kütləvi təxliyəsi, yaralıların çeşidlənərək bir pillə yuxarı tibbi müdaxilə üçün təxliyə olunması və digər mövzularda müzakirələr aparılıb.

# Ermənistan ordusunda qətl və intihar halları artır

*Ermənistan mətbuatı Şirak vilayətinin Hatsik kəndində 19 yaşlı əsgər Abas Sloyanın intiharı ilə bağlı xəbər yayıb. Məlumata görə, Armavir şəhərində xidmət keçən əsgər yoldaşları tərəfindən fiziki zorakılığa və təhqirlərə məruz qalıb. Buna dözməyərək kazarmadan qaçan A.Sloyan əmisinin evində özünü asaraq intihar etmiş vəziyyətdə tapılıb.*

Eyni hal Nubaraşen hərbi hissəsində də qeydə alınıb. Vardan Melkonyan adlı əsgər intihar edib. Yaxınları isə onun öldürüldüyünü iddia edirlər. Bununla bağlı artıq Helsinki Vətəndaş Assambleyasına da müraciət olunub. İşğalçı ölkənin ordusundakı qətl və intiharların artması cəmiyyətdə kəskin narazılığa səbəb olub. Müdafiə Nazirliyinin və hökumət binasının qarşısına toplaşan vətəndaşlar övladlarının qatilinə çevrilmiş hökumətin istefasını tələb edirlər. Etirazçılardan biri deyir ki, oğlu xidmətdə olduğu hərbi hissədə yüksək rütbəli zabit tərəfindən öldürülüb. Həmin şəxs prezident Serj Sarkisyanın yaxın qohumu olduğundan cinayətkar cəzasız qalıb.

Vətəndaşlar bildirirlər ki, oğulları hakim rejimin qurbanlarıdır. Onların övladları hərbi xidmətdən ya əlil kimi qayıdır, ya qətlə yetirilir, ya da intihar edirlər. Bu cür hallara son qoyulmasını istəyən valideynlər cəmiyyətə çağırış ediblər. Onlar tövsiyə edirlər ki, hər kəs övladlarını Ermənistan ordusundan yayındırsın. Etirazçılar əsasən də gəncləri Qarabağa göndərməkdən çəkinməyə səsləyiblər. Çağırışda əsasən "Qarabağ bizim torpağımız deyil. Uşaqlarınızı rejimin qurbanına çevirməyin. Əks təqdirdə indi aksiya keçirən anaların aqibəti ilə üz-üzə qalacaqsınız", - deyə valideynlərə müraciət edilib. Həmçinin qeyd olunub ki, cəbhədə vəziyyət daha acınacaqlıdır. Hərbi hissələrdə sosial şərait bərbad vəziyyətdədir. Yemək keyfiyyətsizdir. Hətta zabit ailələri dözülməz şəraitdə yaşayırlar. Hərbi hissələrdə isə intizamsızlıq hökm sürür. Belə vəziyyətdə övladlarının sağ qayıtması ailələr üçün möcüzədir.

# Qazaxda "Azərbaycan bayrağı" ordenli Qaratel Hacımahmudovanın xatirəsi anılıb

*Qazaxda Qarabağ müharibəsi şəhidi, "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuş Qaratel Hacımahmudovanın doğum günü qeyd olunub.*




AZƏRTAC xəbər verir ki, Qazax Şəhidlər xiyabanında keçirilən anım mərasimində rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək Qazax rayonunda mənfur qonşularımıza qarşı aparılan mübarizədən, bu yolda rayonun 283 şəhid verməsindən söz açıb. Qeyd edib ki, qazaxlılar öz torpaqlarını mərdliklə qoruyub və bu yolda canlarından keçiblər.

Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi Barat Vüsal Q.Hacımahmudovanın keçdiyi şanlı həyat yolundan danışıb.

Sonra Şəhid Ailələri və Qarabağ Müharibəsi Veteranları İctimai Birliyi Qazax rayon şöbəsinin sədri Xasay Balayev, şəhidin adını daşıyan məktəbin direktoru Yeganə Göyüşova, Qaratelin döyüş yoldaşı Nəsib Nəsibov çıxış edərək şəhidlə bağlı xatirələrini bölüşüblər.

Şairlərdən Zaməddin Ziyadoğlu, Məzahir Yaqublu, Tamella Poladlı, Səhlədar Hidayətoğlu Qaratelə həsr etdikləri şeirlərini oxuyublar. Şəhidin adını daşıyan məktəbin şagirdlərinin ifasında Vətənə, Qarabağa, şəhidlərə həsr olunmuş şeirlər səsləndirilib.

# Ermənistan-Azərbaycan münaqişəsinin həlli İslam Əməkdaşlıq Təşkilatı üçün ən prioritet məsələdir

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli İslam Əməkdaşlıq Təşkilatı (İƏT) üçün ən prioritet məsələdir.

AZƏRTAC xəbər verir ki, bu fikir İƏT Səfirlər və Diplomatik Missiya Rəhbərləri Şurasının üzvlərinin Mexiko şəhərində keçirdikləri görüşdə səsləndirilib. Meksika Deputatlar Palatasında keçirilən görüşdə Şuranın sədri Yasir Şaban bildirib ki, İƏT prioritet təşkil edən məsələlərdə Meksikanın da davamlı dəstəyinə ümid bəsləyir.

Xatırladaq ki, İƏT tərəfindən qəbul olunmuş qətnamələrdə Ermənistanın Azərbaycana qarşı təcavüzü qəti şəkildə pislənilir və ondan işğalçılıq siyasətinə son qoyulması tələb olunur.

# Bir qrup hərbi qulluqçu şəhidin ad günündə ailəsinə baş çəkib




Avqustun 16-da bir qrup hərbi qulluqçu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı 2016-cı ilin aprel döyüşlərində şəhid olmuş mayor Əliyev Elnur Adil oğlunun ad günündə onun ailəsinə baş çəkib.

Füzuli rayonunda keçirilən tədbirdə hərbi hissənin zabitləri, qoşun təcrübəsində olan kursantlar, ictimaiyyət nümayəndələri və yerli sakinlər iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib, əklil və gül dəstələri qoyublar. Elnur Əliyev, eləcə də bütün şəhidlərin ruhuna dualar oxunub, şəhid olmuş Vətən övladlarının xatirəsi qürurla yad edilib.

E.Əliyevin ailə üzvlərinə Müdafiə Nazirliyinin rəhbərliyi və onunla birlikdə xidmət etmiş hərbi qulluqçular adından başsağlığı çatdırılıb, şəhidlərimizin qisasının daim alındığı və düşmənə hər an layiqli cavab verildiyi qeyd olunub.

Sonra şəhidin valideynlərinin yaşadığı ünvanda görüş keçirilib. Toplaşanlar E.Əliyevi yad edərək onunla bağlı xatirələrini bölüşüblər.



Şəhidin ailə üzvləri və tədbir iştirakçıları göstərilən diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

---

*Publisistik düşüncələr*

# Əsgər andın mübarək!

*Xatirələrimizi çözələdikcə keçmişdə qalmış illər, o illərdə baş vermiş hadisələr bizə bir köynək də yaxın olur. Yada salınmalı o qədər xatərlərimiz var ki,..*

*1980-ci ilin ılıq may günlərində Biləcəri dəmir yol stansiyasından keçmiş Sovet ordusunun sıralarına yola düşəndə ağlıma və xəyalıma da gəlməzdi ki, 37 ildən sonra mən də övladımı elə həmin Biləcəri dəmir yol stansiyasından doğma ordumuzun sıralarına göndərəcəm. Ağlıma gəlməyən o xoşbəxt dəqiqələr, xoşbəxt anlar bir neçə həftə əvvəl baş verdi. İsti yay gecələrinin birində yeganə övladım, iki uşaq atası oğlum Arazı qatarla əsgəri xidmətə yola saldım...*



Araz hərbi xidmətə gedən gün səhər-səhər hava isti olsa da, axşama yaxın bir az sərinlədi. Neçə gündən bəri kəsmək bilməyən külək bir az sakitləşdi. Həmin gecə stansiyada övladını hərbi xidmətə yola salan valideynlər oğulları ilə stansiyanın sakit bir guşəsinə çəkilmişdilər. Valideynlər övladlarına son məsləhət və tövsiyələrini verirdilər. Sabahın əsgərlərini yola salanlar təkcə ata-anası, yaxın qohumları deyildi. Çağırışçıların dostları da bu xoş və həyəcanlı günlərdə ordaydı. Arazı yola salmağa dostları Azər və Murad da gəlmişdi.

Çağırışçıları elə ilk baxışdan tanımaq olurdu. Onların əksəriyyəti saçlarını səliqə ilə vurdurmuşdular, çiyinlərindən çanta asmışdılar. Çağırışçıları görəndə bir anlıq özümün hərbi xidmətə getdiyim gün yadıma düşdü.

...Bir an içində ətrafı səs-küy bürüdü. Səs-səsə qarışdı, bayaqkı sakitlik pozuldu. Qatar sürətini azaldan kimi vaqonlar "dərindən nəfəs çəkib" dayandı. Çağırışçılar üçün ayrılmış vaqonlara tərəf addımladıq. Vaqonun qapısı ağzında Arazı övlad, çağırışçı, sabahın əsgəri kimi bağrıma basdım. Belə həyəcanlı anlarda nə qədər özümü təmkinli tutmağa çalışsam da kövrəlməyə bilmədim... Pəncərədən baxıb bir-birimizə əl edirik... Qatar yavaş-yavaş yerindən tərpənir. Vaqonlar ritmik taqqıltı sala-sala stansiyadan uzaqlaşır. Hamının əlləri göydə donub qalır. Valideynlərin yanağında sevinc və qürurdan doğan göz yaşları görünür.

Qatar gedəndən sonra vağzala sakitlik çökür. Ulduzlarla dolu səmaya baxıram. Mənə elə gəlir ki, bu gecə Ay da, ulduzlar da həmişəkindən parlaq və işıqlıdır.

Şəhərin səsli-küylü küçələrindən keçib evə qayıdırıq. Ətrafdakı səslər məni düşüncələrimdən ayıra bilmir. Bu anlarda sanki xəyalən Arazla danışıram:

- İnanıram ki, sən hərbi xidmətdə nümunəvi əsgərlərdən biri olacaqsan. Ordu həyatı sənə çox doğmadır. Sən dünyaya göz açıb həyatı dərk edəndən atanı hərbi formada görmüsən. Zaman-zaman bu forma sənə doğmalaşıb. Böyüdükcə, yaşa dolduqca hərbi geyimə sevgin, məhəbbətin artıb. Yadına gəlirmi, tez-tez papağımı başına qoyub evdə əsgər kimi addımlayar, hərbi salam verərdin. Ürəyindən Vətənə əsgər olmaq arzusu keçirdi. Kiçik yaşlarından səni özümlə hərbi hissələrdə keçirilən andiçmə mərasimlərinə, başqa maraqlı tədbirlərə aparardım. Sən hərbi andı qəbul edən əsgərlərin ünvanına təbriklər söyləyər, Vətəni, vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən şeirlər deyərdin. Hərbi hissəyə gedəndə sən əsgərlər kimi addımlamağa çalışar, silahlara, hərbi texnikaya böyük maraq göstərərdin. Zabitlərə, əsgərlərə müharibə ilə, döyüşlərlə bağlı çoxlu suallar verərdin. Onlar suallarını cavabsız qoymazdılar. Ordu həyatı, əsgəri xidmət daim ahənrüba kimi səni özünə çəkərdi.

Yadındadırmı, sən beşinci sinifdə oxuyanda andiçmə mərasiminə getmişdik. Zabitlərdən birinə dedin ki, nə vaxt Qarabağa vuruşmağa yollansanız məktəbimizin yanında saxlayıb siqnal verərsiniz, mən tanka minib sizinlə döyüşə gedəcəm. Sən bir müddət hərbçilərin gəlişini gözlədin. Sonra başın dərslərinə qarışdı. İndi böyümüsən, ali təhsilini bitirib hərbi xidmətə gedibsən. Söhbətlərindən hiss edirəm ki, silahlara, texnikalara marağın azalmayıb. Səni bölgələrdə yerləşən hərbi hissəyə aparan qatar stansiyadan tərpənəndən sonra bilirsən ağlıma hansı fikirlər gəldi? Bir vaxtlar bu qatarlar məni də cəbhə bölgələrinə aparıb gətirərdi. İndi sən yola çıxmısan. İndi sən əsgərsən. İndən sonra orduda mənim yolumu sən davam etdirəcəksən. Tarixən bu belə olub. Oğullar bütün müqəddəs işlərdə ataların yollarını davam etdiriblər. Unudulmayan, yaddan çıxmayan bu tarixi ənənə bu günümüzdə də öz axarı ilə gedir. Getdiyin bu müqəddəs yolda sənə uğurlar arzulayıram. Gün o gün olsun ki, valideynlərinin, övladlarının və doğmalarının yanına sağ-salamat, özü də zəfərlə, qələbə ilə dönəsən!

Arazı yola saldığımız gündən xeyli müddət ötüb. Düşünürəm ki, Araz indiyə qədər sırada addımlamağı, eləcə də bəzi vacib hərbi vərdiş və hərəkətləri öyrənib. Avtomat silahını söküb-yığmağı və ondan hədəflərə dəqiq atəş açmağı mənimsəyib. Onun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti Qarabağ müharibəsinin od-alovundan keçib. Hərbi hissədə xidmət edən zabit və əsgərlər döyüşlərdə böyük hünər və rəşadət göstəriblər. İnanıram ki, həm mənim övladım, həm də onun əsgər yoldaşları sələflərinin döyüş yollarını şərəflə davam etdirəcəklər.

Çağırışçı kimi yola saldığım övladımı əsgər kimi görməyə tələsirəm. Atanın oğlunu hərbi formada görməsi çox sevindiricidir, iftixar və qürurverici, təsviri çətin olan bir haldır. Unudulmayan, yaddan çıxmayan, təkrarlanmayan bir andır. Bax, belə xoş hiss və düşüncələrlə yola çıxırıq...

Yol uzaq olduğundan düşüncələrimlə baş-başa qalıram. Xidmətimlə əlaqədar bu günə qədər çox andiçmə mərasimlərində iştirak etmişəm. Bu tədbirlərdə maraqlı, yaddaqalan məqamların şahidi olmuşam. Ana sevinci, ata fərəhi, əsgər qüruru görmüşəm. Budur, yenə də yoldayam, yenə də andiçmə mərasiminə gedirəm. Ovqatım daha kövrək, daha mübhəm hisslərə köklənib. İndi mən tədbirə əsgər atası kimi gedirəm. Bu, çoxdan gözlədiyim, həsrətində olduğum sevindirici bir gündür. Yadıma gəlir, dörd-beş il bundan əvvəl oğlu əsgər olan valideynlərdən biri andiçmə günü övladını ziyarətgaha aparıb orada qurban kəsmişdi. Həmin gün övladını əsgər görən atanın ürəyi sevinclə dolmuşdu, başqa valideynlər də onun sevincinə qoşulmuşdular. Bu cür xoş düşüncələr, şirin xatirələr sanki yolumuzu qısaldır...

Hərbi hissənin qarşısında böyük canlanma var. Valideynlər andiçmə mərasimində iştirak etmək üçün ürəklərində sevinc, gözlərində təbəssüm, dodaqlarında gülüş hərbi hissəyə gəliblər. Bir azdan asta addımlarla yenicə tikilib istifadəyə verilmiş hərbi hissənin ərazisinə daxil oluruq. Hərbi hissə bayramsayağı bəzədilib. Şəxsi heyət sıra meydanında tədbirə hazır vəziyyətdədi. Gözlərim sırada dayanan əsgərlərin arasında Arazı axtarır. Onu "tapıram". İlk dəfədir onu hərbi formada görürəm. Hərbi forma Araza çox yaraşır. O da sırada inamla dayanıb. Həmişə Vətənə əsgər olmağa can atardı. O, bu günü intizarla gözləyərdi. Öz-özümə astaca deyirəm: "Arzuna çatdın, sən əsgərsən!" Ürəyim iftixar və qürur hissi ilə dolur. Nədənsə, bu anlarda ötüb arxada qalanları, yaşananları xatırlayıram. Bir an içində Arazın doğulduğu, bağçaya, orta məktəbə, universitetə getdiyi günlər kino lenti kimi gözlərim önündən gəlib keçir. O, əsgərdir, Vətən borcunu yerinə yetirir...

Gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olduqları barədə komandirə məruzə olunur. Onun əmrindən sonra şəxsi heyət hərəkətə gəlir. Əsgərlər nizami addımlarla sıradan irəli çıxıb geniş meydanda qoyulmuş və üstünə üçrəngli bayrağımız sərilmiş və müxtəlif silahlar düzülmüş masaların yanında yerlərini tuturlar. Əllərinin birini silahın, birini isə əsgər yoldaşının çiyininə qoyaraq hərbi andı qəbul edirlər. Onların gur səsi meydanı doldurur. Unudulmaz xoş anlar, xoş dəqiqələr yaşayırıq...

Hərbi andiçmə mərasimi başa çatandan sonra əsgərlərlə görüşə icazə verilir. Arazı - əsgər oğlumu böyük sevinc və fərəh hissi ilə qucaqlayıb bağrıma basıram. O, xidmətindən, keçirilən təlimlərdən, sirlərini öyrəndiyi hərbi texnika və silahlardan həvəslə danışır. Təlim mərkəzinə getdiyindən, ilk dəfə avtomat silahından hədəfə necə atəş açdığından danışır. Vətənə sədaqətlə, ləyaqətlə xidmət edəcəyini, içdiyi anda həmişə sadiq qalacağını deyir. Ordu həyatından, hərbi xidmətdən qürur duyduğunu dönə-dönə vurğulayır.

Arazın hərbi andı qəbul etdiyi gün ömür kitabımızın səhifəsinə böyük hərflərlə yazıldı. Bu günü, bu anı həmişə xoş hisslərlə xatırlayacağıq. Hərbi andı yenicə qəbul etmiş Arazın üzündən sevinc və bəxtəvərlik yağır. Bu günü o da yaddaşında həmişəlik saxlayacaq. Bu unudulmaz anlarda fikirləşirəm ki, bir gün gələcək, Araz da mənim adımı daşıyan övladını doğma ordumuzun sıralarına yola salacaq!..

Arazı belə vüqarlı, hərbi xidmətə həvəsli gördüyümdən ürəyim dağa dönür. Araza belə xoş anlarda deyirəm: "Əsgər andın mübarək, əsgər adın mübarək, oğul!"...

**Vahid MƏHƏRRƏMOV,**
**ehtiyatda olan zabit,**
**əsgər atası**

# İsrailin "Qaley Tsaxal" radiostansiyası:

# İsrail ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır

*İsrailin "Qaley Tsaxal" dövlət hərbi radiostansiyasının populyar "Təhlükəsizlik kəməri" adlı verilişində Ermənistan-Azərbaycan sərhədində və Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində baş verən hadisələr, habelə Azərbaycan-İsrail strateji tərəfdaşlığının perspektivləri ətraflı şərh edilib.*



AZƏRTAC xəbər verir ki, verilişin aparıcısı Amir Rappoportun suallarını beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildə fəaliyyət göstərən "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut cavablandırıb. A.Qut qeyd edib ki, Cənubi Qafqaz regionunda yaranmış vəziyyət dinc yanaşı yaşamaq üçün zəruri vəziyyətdən uzaqdır. İsrailli ekspert vurğulayıb: "Burada geosiyasi vəziyyət mürəkkəb və gərgindir. Ən dəhşətlisi - burada xüsusilə güclü şəkildə hiss edilən qeyri-müəyyənlikdir, insan burada olanda real şəkildə anlayır ki, "atəşkəs və sülh" anlayışları çox amanəbənddir. Bir neçə həftə bundan əvvəl Zəhra Quliyeva adlı yaşyarımlıq azərbaycanlı qızcığaz və onun nənəsi erməni terrorizminin, erməni faşizminin qurbanı oldular. Təəssüf ki, müasir Ermənistan rəhbərliyinin fitvası ilə azərbaycanlı uşaqların və qadınların qətlə yetirilməsi birinci dəfə deyil. İşğalçı erməni silahlı qüvvələrinin hədəfi altında olan dinc azərbaycanlı əhalinin necə əziyyət çəkdiyini mən öz gözümlə görmüşəm.

Rəsmi Bakı Ermənistana dəfələrlə xəbərdarlıq edərək bildirib ki, Azərbaycan mövcud status-kvonun saxlanması ilə heç vaxt razılaşmayacaq. 2016-cı il aprelin əvvəlində Ermənistanın hərbi provokasiyası nəticəsində Azərbaycan Ordusu ölkə vətəndaşlarının təhlükəsizliyini təmin etmək, təxribatın qarşısını almaq məqsədilə Ermənistanın silahlı qüvvələrinə sarsıdıcı zərbə endirdi və onları geri çəkilməyə məcbur etdi. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü və qüdrətli ordusu olan ölkədir. Azərbaycan Ordusu öz gücünü nümayiş etdirmək üçün həqiqət anını gözləyirdi.

"Qaley Tsaxal" radiostansiyasının aparıcısı Ermənistanın İsraildən Azərbaycana hərbi texnika və texnologiyalar göndərilməsinə son qoymaq tələbi barədə sual verib. Arye Qut bu sualın cavabında qeyd edib ki, Ermənistanın bu tələbi tamamilə absurd və mənasızdır. 25 ildən artıq müddətdə Azərbaycan ərazilərini işğal etmiş bu ölkə indi Odlar Yurdunu beynəlxalq hüquq normalarını pozmaqda ittiham edir. Arye Qut deyib: "Əlbəttə, təcavüzkarlığı üzündən Azərbaycanın 25 ildən artıq əziyyət çəkdiyi ölkənin, Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş, orada etnik təmizləmə aparmış və 1 milyondan çox dinc sakini doğma yurdlarından qovmuş ölkənin parlamentariləri tərəfindən Azərbaycanın ittiham edilməsi riyakarlıq və nalayiqlikdir. Məgər bu, insan haqlarının pozulması, beynəlxalq hüququn elementar normalarının pozulması deyilmi?"

Arye Qut İsrail-Azərbaycan münasibətlərinin perspektivlərindən söhbət açaraq qeyd edib ki, Avrasiya ərazisində heç bir ölkənin İsrail ilə münasibətləri Azərbaycan Respublikasının İsraillə münasibətləri qədər sıx və səmimi deyil. İsrailli ekspert deyib: "İsrail ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. İsrail Azərbaycana həmişə böyük diqqət və səmimiyyətlə yanaşıb. İsrail Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiyini dəfələrlə bildirib. İsrail dünyada Azərbaycan neftinin əsas alıcılarından biridir. Azərbaycan da öz növbəsində, kənd təsərrüfatı, hərbi sənaye, telekommunikasiyalar sahəsində İsrailin müasir yüksək texnologiyalarına ehtiyac duyur. Bu siyahını davam etdirmək olar. Eyni zamanda, bu ölkələr təhsil, humanitar və mədəni layihələr həyata keçirirlər.

Rəsmi Yerevan tərəfindən tənqid məsələsinə gəldikdə isə mən deyərdim ki, Azərbaycan və İsrail öz dostlarını və tərəfdaşlarını özləri seçir və hərbi-texniki sahədə strateji əməkdaşlığın səviyyəsini məhz bu ölkələr özləri müəyyən edir. Heç kəsin, xüsusən Ermənistanın bu məsələyə müdaxilə etməyə haqqı yoxdur.

Arye Qut vurğulayıb ki, əhalisinin əksəriyyəti İslam dininə etiqad bəsləyən Azərbaycan eyni zamanda bir sıra başqa etnik və dini qrupların, o cümlədən qədim zərdüştilik, xristian və yəhudi icmaları üçün doğma evdir.

İsrail Azərbaycanın real tərəfdaşı kimi artıq 25 il Ermənistanın işğalı altında olan Dağlıq Qarabağın və ona bitişik 7 rayonun Azərbaycana qaytarılması barədə Azərbaycanı dəstəklədiyini daim nümayiş etdirir.

Arye Qut qeyd edib ki, Azərbaycan ilə İsrail arasında münasibətlər pozitiv, strateji xarakter daşıyır. Azərbaycan-İsrail ticari əməkdaşlığı inkişaf edir, iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi təxminən 4 milyard dollara bərabərdir.

Ekspert öz çıxışında qürurla qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə bir neçə dəfə şəxsən görüşüb, bu görüşlərdə Azərbaycan rəhbərliyinin ölkədəki milli azlıqların, o cümlədən dünyada analoqu olmayan yəhudi icmasının ənənələrinə və həyatına qayğıkeş və səmimi münasibət bəslədiyini real olaraq hiss edib.

Arye Qut deyib ki, Azərbaycan rəhbərliyi bu ölkədəki - dünyada analoqu olmayan yəhudi icmasının ənənələrinə və həyatına qayğıkeş və səmimi münasibət göstərir. Arye Qut vurğulayıb: "Ölkə Prezidentinin himayəsi ilə iki sinaqoq və Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi yaradılıb. Azərbaycanda birinci yəhudi muzeyi yaradılması planlaşdırılır. Bu, Cənubi Qafqazda ilk yəhudi muzeyi olacaq. Əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan kimi bir ölkənin İsrail ilə bu cür sıx dialoq, əməkdaşlıq və tərəfdaşlıq qurmağa necə nail olması barədə kiminsə sualı varsa, Azərbaycanın dağlıq bölgəsində yerləşən Quba rayonunda yəhudilərin yaşadığı məşhur Qırmızı Qəsəbəyə baxmaq kifayətdir. Azərbaycanın əsl qürur yeri sayılan Qırmızı Qəsəbə İsraildən sonra bütün dünyada yəhudilərin yığcam şəkildə yaşadığı yeganə unikal yerdir. Burada yəhudilər və azərbaycanlılar əsrlərboyu doğma qardaşlar kimi yaşayır, onlar ortaq tarixi tellər və ortaq tale ilə bir-birinə bağlıdır. Ermənistanın Azərbaycana qarşı apardığı etnik təmizləmə və təcavüz siyasətinə, o cümlədən ölkə ərazisinin 20 faizinin işğal edilməsinə və 1 milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq, Azərbaycan sivilizasiyalararası və konfessiyalararası dialoqun əsil nümunəsi kimi qalmaqda davam edir. Azərbaycan sivilizasiyalararası, konfessiyalararası və mədəniyyətlərarası dialoqun əsl nümunəsi olub və bu gün də belədir. Tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin əsasıdır. Azərbaycan multikulturalizm və tolerantlıq ənənələrini inkişaf etdirmək və möhkəmləndirmək üçün siyasi və sosial şərait yaradılmasını stimullaşdırmağa səy göstərir".

A.Qut qeyd edib ki, Azərbaycan konfessiyalararası harmoniyanın mümkün olmasını, hər hansı problemlərin zorakılığa və ya münaqişələrə əl atmadan həll edilə biləcəyini nümayiş etdirib.

Arye Qut İsrailin "Qaley Tsaxal" dövlət hərbi radiostansiyasına şərhinin sonunda deyib: "Prezident İlham Əliyev dünyəvi dövlətin, tolerantlığın tərəfdarı olduğuna görə, ölkədə yaşayan bütün konfessiyalara və xalqlara, o cümlədən Azərbaycan yəhudilərinə hörmətli münasibətinə görə həm İsrail cəmiyyətinin, həm də dünya yəhudi icmalarının hörmətini və ehtiramını qazanıb.

İsrail ilə Azərbaycan arasında, həmçinin Azərbaycan müsəlmanları və Azərbaycan yəhudiləri arasında münasibətləri təkcə qarşılıqlı maraqla izah etmək olmaz. Bu gün Azərbaycan-İsrail münasibətləri ümumi dəyərlərə və ümumi tarixə əsaslanır. İki ölkə arasında insani əlaqələr və müxtəlif dinitolerant cəmiyyətlərdə yaşamaq qətiyyəti hər iki ölkəni zənginləşdirir. Açıqaşkar görünür ki, Azərbaycanda yəhudilər və müsəlmanlar qardaşlar kimi dinc yanaşı yaşayırlar, bu gün də belədir, onlar ortaq tarix və ortaq tale ilə bir-birinə həmişəlik bağlıdırlar".

# Xəbərlər:

## hadisələr, faktlar

### KİV nümayəndələri Hokkaydoda keçirilən ABŞ-Yaponiya birgə hərbi təlimlərini izləyiblər



Kütləvi informasiya vasitələrinin nümayəndələri Yaponiya özünümüdafiə qüvvələrinin və ABŞ dəniz piyadalarının Hokkaydo adasında keçirilən birgə hərbi təlimlərini izləyiblər.

Təlimlər ötən həftə quru qoşunlarının üç hərbi poliqonunda başlayıb və ümumilikdə 3300 hərbçini əhatə edib. Təlimlər zamanı 300 hərbçi düşmənin mövqelərinin alınması əməliyyatını həyata keçirib, tanklar təqribən 500 metr məsafədə yerləşən hədəflərə artilleriya atəşi açıblar.

### Rusiyada 120 milyon il əvvələ aid dinozavr və mamont qalıqları aşkarlanıb



Rusiyanın Sibir bölgəsində yunlu mamonta aid qalıqlar tapılıb.

Rusiyalı elm adamları Krasnoyarsk bölgəsində araşdırma apararkən mamontların qalıqlarının olduğu qayalıq aşkar ediblər. Bununla yanaşı, Çulım çayı sahilində yerləşən qayalıqda 120 milyon il əvvələ aid olan dinozavr qalıqlarına da rast gəlinib.

Tədqiqatçılar qayalıqda qədim dövrə aid qalıqların çox olduğunu ehtimal edirlər. Araşdırmalar davam etdirilir.

### İspaniya sahillərində 340-a yaxın miqrant xilas edilib



Afrika sahillərindən dörd qayıqla İspaniyaya getmək istəyən 340-a yaxın miqrant xilas edilib.

Xilas edilən miqrantlar Tarifa şəhərinə göndərilib.

### Çin dünyada ilk üzən günəş elektrik stansiyasını işə salıb



Çinin Anxoy vilayətinin Xuaynan şəhəri yaxınlığında dünyada ən nəhəng üzən günəş elektrik stansiyası işə salınıb.

Stansiya 1200 günəş paneli ilə təchiz olunub. Ümumilikdə isə 86 hektar su səthində yerləşib. Elektrik stansiyası 40 meqavat enerji istehsal edə bilir və bu, 15 min evin elektrik enerjisi ilə təmin olunması deməkdir.

### Barselonada törədilmiş terror aktı nəticəsində xəsarət alanların sayı 60-a çatıb



İspaniyanın Barselona şəhərində naməlum sürücünün idarə etdiyi mikroavtobusu kütlənin üzərinə sürməsi nəticəsində xəsarət alanların sayı 60-a yüksəlib. Əvvəl isə bu rəqəm 32 nəfər göstərilirdi. Las Ramblas turizm bölgəsində baş vermiş hadisə nəticəsində 13 nəfər həlak olub.

İŞİD terror qruplaşması törədilmiş terror aktına görə məsuliyyəti öz üzərinə götürüb. Bu barədə İŞİD-in təbliğat agentliyi olan "Amaq" məlumat yayıb.

### Misirdə son 50 ildə 33 mindən çox tarixi əsər itib



Misirdə son 50 ildə təxminən 33 min 638 tarixi əsər itib.

Bu barədə Misir Tarixi İşlər Nazirliyi məlumat verib.

İtən əsərlərin tapılması üçün INTERPOL, o cümlədən müvafiq beynəlxalq qurumlar və təşkilatlar əməkdaşlığa başlayıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# “Ermənistan tərəfindən yayılan məlumatlar və sənədlər tamamilə saxtadır, uydurmadır”

Son günlər Ermənistan Müdafiə Nazirliyinin nəzarətində olan saytlarda Azərbaycan Ordusu haqqında daxili auditoriyaya hesablanmış yalan və saxta məlumatlar yayılmaqdadır.

Ermənistan tərəfi bu cür dezinformasiyaları yaymaqla özünü guya Azərbaycan Silahlı Qüvvələri barədə məlumatlı göstərməyə çalışır. Əslində isə nümayiş etdirilən "məxfi məlumatlarla dolu məktublar" o dərəcədə bisavad və səriştəsiz hazırlanır ki, onların əvvəldən axıradək saxta olduğu heç bir şübhə doğurmur. Bütün bunlar erməni xüsusi xidmət orqanları və "əkstəbliğat mütəxəssisləri" tərəfindən qeyri-peşəkar səviyyədə, tələm-tələsik uydurularaq, səliqəsiz düzülüb-qoşulmuş kağız parçasıdır.

Son yayılan məktubdakı saxtakarlıq və səhvlər isə daha tez diqqəti cəlb edir. Qeyd edək ki, Baş Qərargah rəisi müntəzəm olaraq Ordudakı vəziyyət haqqında Müdafiə nazirinə şifahi məruzələr etdiyindən xidməti məsələlərlə bağlı Ermənistan mətbuatının təqdim etdiyi formada yazılı müraciətlərə zərurət qalmır. Çoxlu qrammatik səhvlər və yazılış üslubundakı uyğunsuzluqlarla (məktubda 20-dək səhv var) hazırlanmış bu məktubun Müdafiə Nazirliyində mövcud olan daxili yazışmalara və kargüzarlığa azacıq da olsa uyğunluğu yoxdur. İstər mövcud olmayan simvolikalı rəsmi blank, istərsə də orada olan imzalar saxtalaşdırılıb, həmin sənədlərdə göstərilən tarixlər, rəqəmlər, yer və adlar da tamamilə uydurmadır.

Məktubda göstərilən məqamlardan biri də 2016-cı ilin aprel döyüşlərindəki itkilər barədə məlumatların ağlasığmaz dərəcədə şişirdilməsi və bilərəkdən qat-qat çox göstərilməsidir. Bütün ölkə mətbuatı və ictimaiyyət həmin dövrdə şəhidlərin dəfn mərasimlərində iştirak edib, hər kəs bu proseslərin nə qədər yüksək səviyyədə və təntənəli təşkil olunduğunu izləyib, Ali Baş Komandanın Ordumuza yüksək qiymət verməsinin və qəhrəmanlarımızın mükafatlandırılmasının şahidi olub. Odur ki, üstündən bu qədər vaxt keçdikdən sonra Ermənistan mətbuatının guya itkilərin gizlədilməsi barədə məlumatlar tirajlaması blefdən başqa bir şey deyil və heç bir etik normalara sığmır. Texniki tərəqqinin hazırkı inkişaf mərhələsində itkilərin əhalidən gizlədilməsi də qeyri-mümkündür. Aprel döyüşləri zamanı itkilərin sayı barədə göstərilən rəqəmlər əslində Ermənistanın öz itkilərinin sayıdır və onlar hələ də ictimaiyyətə bu barədə düzgün məlumat verməyiblər.

Aprel döyüşlərindən sonra özünə gəlməyən, Ermənistan rəhbərliyi bilərəkdən Azərbaycan tərəfinin itkilərini qat-qat artıraraq verməklə Ermənistan əhalisinin fikrini yayındırmağa çalışır. Nədənsə uğurlu əks-hücum əməliyyatı keçirərək sarsıdıcı zərbələr endirən Azərbaycan Ordusunun 2000 hektaradək ərazini işğaldan azad etdiyini unudurlar.

Aprel döyüşləri zamanı atəşkəsin elan edilməsinin səbəbi isə qarşı tərəfin iddia etdiyinin əksinə olaraq, Azərbaycan Ordusunun uğurla irəliləməsindən vahiməyə düşən Ermənistan rəhbərliyinin yalvarıcı, aşağılayıcı və təkidli xahişi nəticəsində üçüncü tərəfin vasitəçiliyi ilə mümkün olmuşdur. Azərbaycan tərəfinin belə bir görüşə və addıma razılaşmasının yeganə səbəbi əlavə qan tökülməsinə son qoyulması olub.

Düşmən tərəfinin bu kimi saxtakarlığı son günlər Azərbaycan mətbuatında işğalçı Ermənistan ordusundakı neqativ hallar barədə yayılan faktlara cavab olaraq ermənisayağı atılmış növbəti uğursuz bir addımdır. Özünü təmizə çıxarmaq məqsədi daşıyan cinayətkar hərbi-siyasi rejim rəhbərliyi bu xəbərlərlə Ermənistan ordusundakı acınacaqlı vəziyyət səbəbindən hərbi qulluqçular arasında artan intihar, nizamnamədən kənar münasibətlər və digər cinayət əməllərindən əhalinin fikrini yayındırmağa çalışır.

Cəbhədəki döyüşdə uğur qazana bilməyən Ermənistan bu gün mətbuat, virtual məkan və kağız üzərində savaş açmaqla, hətta Azərbaycan Ordusunda heç zaman xidmət etməyən, sosial şəbəkələrdə saxta İP ilə qeydiyyatdan keçərək və azərbaycanlı bloqer adı altında "döyüşərək" qismən də olsa uğursuzluqlarının əvəzini çıxmağa çalışır.

Müdafiə Nazirliyi bildirir ki, yayılan məlumatlar və sənədlər tamamən saxtadır, uydurmadır, Azərbaycan mətbuatı tərəfindən yayılması, sosial şəbəkələrdə müzakirəsi qətiyyən yolverilməzdir. Yayılan dezinformasiya xarakterli məlumatlar düşmən maraqlarına xidmət etdiyindən bu kimi təbliğata uymamağa çağırırıq.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Hərbi ənənələr, yeniliklər*

# Məsafədən idarəolunan “Əl-Robot” döyüş maşını



Hazırda bir çox dünya ordularında daha çox marağa səbəb olan quru qoşunların məsafədən idarəolunan döyüş maşınlarıdır. Yeni texnika layihələri haqqında informasiyalar daim verilməkdədir. Bununla silah bazarının tanınmış liderləri quru qoşunları üçün döyüş "pilotsuz"larının hazırlanması ilə məşquldurlar. Son ilin ən maraqlı layihələrindən biri İraq təşəbbüskarları tərəfindən işlənilib və "Əl-Robot" adını almış məsafədən idarəolunan döyüş robotudur.

İraqın kütləvi informasiya vasitələrinin məlumatına görə, "Əl-Robot" iki təşəbbüsçü qardaş tərəfindən yaradılıb. Bəzi səbəblərə görə onların adları çəkilməyib. Döyüş robotu əvvəlcə İraqda keçirilən sərgidə nümayiş etdirilib, sonra isə silahlı qüvvələrə təqdim olunub.

"Əl-Robot" layihəsinin əsas məqsədi lüləli və reaktiv silahlanma və həmçinin oprik cihazlanma ilə təchiz edilmiş məsafədən idarəolunan zirehli maşının yaradılmasıdır. Maşın müxtəlif texniki aqreqatlardan və digər hazır məmulatlardan ibarət kompleksə malikdir. Döyüş robotunda yüngül ikioxlu şassidən istifadə edilib. Şassisinin aqreqatları ümumi çərçivəyə bərkidilib və onun üst hissəsində zirehli gövdə quraşdırılıb. Orta hissəsində texniki vasitələrə xidmət göstərmək üçün lyuk da vardır. Xüsusi zirehli "Əl-Robot" maşını üçün yeni məsafədən idarəolunan model yaradılıb. Onun qülləsində silindr şəkilli dayaq qurğuları bərkidilib. Həmin hissədə pulemyot qurğusunun yerləşdirilməsi üçün çıxıntı da vardır. Yuxarı hissədə quraşdırılan dayaqlar reaktiv silahlanmanı yerləşdirmək üçün nəzərdə tutulub. Robotun əsas silahı 12,7 mm-lik NSV pulemyotudur. Pulemyotun “qidalanması” metal qutuda yerləşdirilmiş lentin köməyi ilə həyata keçirilir. 12,7x108 mm-li güllələrdən istifadə etməklə NSV pulemyotunun atəş tezliyi dəqiqədə 800 atəşdir. Pulemyotun çəkisi 25 kiloqramdır. Atəş məsafədən idarə olunur. "Əl-Robot" döyüş maşını operatordan aralı məsafədə fəaliyyət göstərir. Yerin öyrənilməsi və maşının hərəkət etməsi, silahın idarə edilməsi üçün operator robotun müxtəlif hissəsində quraşdırılmış videokameradan istifadə edir. Operator gövdənin ön hissəsində quraşdırılmış kamera ilə yolu izləyir. Kameralar zirehlə mühafizə olunub. Optik-elektron cihazlar döyüş modulunda yerləşdirilib. Əlavə iki kamera reaktiv silahlanmanın buraxıcı qurğusunun tirində quraşdırılıb. Zirehli korpusun daxilində məsafədən idarəetmə sistemi, həmçinin ikitərəfli rabitə əlaqəsi yaratmaq üçün radiostansiya quraşdırılıb. İş zamanı robot videokameradan pulta siqnal və bəzi məlumatları göndərir, operator isə ona idarəetmə komandası verir. "Əl-Robot" kompleksini idarə etmək üçün operatorun portativ pultundan istifadə olunur. Burada irihəcmli monitor, idarəetmə üçün vasitələr dəsti, radioəlaqə sistemi və s. cihazlar vardır.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan samboçusu Rusiyada festivalın qalibi olub



Rusiyanın Ulyanovsk vilayətində MDB ölkələri milli idman növlərinin və oyunlarının birinci festivalı keçirilib. Mindən çox idmançının yarışdığı mötəbər turnirin proqramına Olimpiya və qeyri-Olimpiya idman növləri daxil edilib. İdmançılar festivalda 70 dəst medal uğrunda mübarizə aparıblar. "Neftçi İdman Klubu"nun samboçusu Cavidan Qarayev (62 kq) festivalda uğurla çıxış edib. Səhliman Ağayevin yetirməsi bütün görüşlərdən qalib ayrılıb və mötəbər yarışın qızıl medalına sahib olub.

## Dünya çempionatında Azərbaycan yeddi qadın güləşçi ilə təmsil olunacaq



Avqustun 21-dən 26-dək Parisdə güləş üzrə dünya çempionatı keçiriləcək.

Mundialda iştirak edəcək sərbəst və yunan-Roma güləşi üzrə yığma komandaların heyəti ötən gün açıqlanıb. Qadın güləşi yarışlarında ölkəmizi Türkan Nəsirova (48 kq), Leyla Qurbanova (53 kq), Nataliya Sinişin (55 kq), İrina Netreba (58 kq), Tatyana Omelçenko (60 kq), Elmira Qəmbərova (63 kq) və Elis Manolova (69 kq) təmsil edəcəklər. Güləşçilərimiz çempionatda böyük məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında yarışacaqlar.

Məlumat üçün bildirək ki, qadın güləşçilərimiz avqustun 7-dən Ukraynanın Kiyev şəhərində Konça Zaspa təlim-məşq bazasında bu ölkənin yığma komandası ilə birgə hazırlıqları davam etdirirlər. Təlim-məşq toplanışı avqustun 21-dək davam edəcək.

## Mundialda iştirak edəcək cüdo millimizin heyəti açıqlanıb




Avqustun 28-dən sentyabrın 3-dək Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə dünya çempionatı keçiriləcək.

Mundialda iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanıb. Yığmamız dünya çempionatına 17 idmançı ilə yollanacaq.

Məşqçilər korpusu mundialda Orxan Səfərov (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Tural Səfquliyev, Məmmədəli Mehdiyev (hər ikisi 90 kq), Elxan Məmmədov, Elmar Qasımov (hər ikisi 100 kq), Uşanqi Kokauri (100 kq-dan yuxarı), qadın cüdoçuların yarışında isə Leyla Əliyeva, Erdenebat Bazarraqça (hər ikisi 48 kq), Nəzakət Əzizova, Purevsuren Buyanxişiq (hər ikisi 52 kq), Səkinə Zayırova, İçinxorlu Munxtsedev (hər ikisi 57 kq), Gülsədəf Kərimova (63 kq) və İrina Kindzerska (78 kq-dan yuxarı) şans verəcək.

## Ağır atletlərimiz Universiadada iştirak edəcəklər



Avqustun 19-dan 30-dək Tayvanın paytaxtı Taypey şəhərində XXIX Ümumdünya Yay Universiadası keçiriləcək. Yarışda 52 ölkədən 300-ə yaxın ağır atlet iştirak edəcək. Atletika yığmamızın iki üzvü də onların arasındadır. Universiadada millimizin şərəfini 69 kiloqram çəki dərəcəsində Məhəmməd Məmmədli, 105 kiloqramdan artıq çəki dərəcəsində Azər Məmmədli qoruyacaq.

**AZƏRTAC-ın
materialları əsasında**

Baş leytenant Bağırov Nahid Namiq oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 348
Nüsxə 4600